# "Çətin" uşaqlarla təlim-tərbiyə işlərinin təşkili

**Vüsalə Vaqif qızı Əmiraslanova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** vamiraslanova123@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d. L.A. Məmmədli

**Açar sözlər:** çətin uşaqlar, çətin yeniyetmələr, yenidəntərbiyə, tərbiyə, çətin uşaqların tərbiyəsi
**Ключевые слова:** трудные дети, трудные подростки, перевоспитание, воспитание, воспитание трудных детей
**Key words:** difficult children, difficult teenagers, re-education, upbringing, education of difficult children

Oğlan və qızlar zahirən bir-birinə oxşaya bilərlər. Hətta əkiz uşaqları bir-birindən ayırmaq çətinlik törədir. Fəqət xaraktercə bir-birinə bənzəyən uşaqlara rast gəlmək olmur. Nə qədər insan, nə qədər uşaq varsa, o qədər xasiyyət, o qədər xarakter vardır.

Bu da bir həqiqətdir ki, həyatda tərbiyəli, nümunəvi davranışlı, humanist, ədalətli, əli və dilidüz, etik qaydaları, qanunun tələblərini gözləyən, öz hüquqlarını bilməklə yanaşı üzərinə düşən vəzifələrini yerinə yetirən insanlarla yanaşı, cəmiyyətə zidd, qanunun tələblərini pozan, Konstitusiyada nəzərdə tutulmuş vəzifələrini yerinə yetirməyən adamlar da vardır.

Yeniyetmələr arasında da davranış, nitq və ünsiyyət mədəniyyətinə, nümunəvi rəftar qaydalarına, geniş dünyagörüşünə, savada yiyələnmiş uşaqlarla bərabər, böyüklərin – valideynlərin və müəllimlərin tərbiyəvi təsirlərinə etinasız yanaşan, sözəbaxmaz, "Şagirdlər üçün qaydalar"ı pozan, dərslərdən yayınan, öz hərəkətləri ilə narahatlıq doğuran, qanun pozan, birgəyaşayış qaydalarını yerinə yetirməyən təhsilalanlar da vardır. Onlar evə gec gəlir, siqaret çəkir, məktəbdə dərsi pozur, sinif yoldaşları, məhəllə uşaqları ilə savaşır, müəllimlə kobud rəftar edirlər.

Pedaqoji və psixoloji ədəbiyyatda belə uşaqlar "çətin" uşaqlar, "çətin" yeniyetmələr adlandırılırlar.

Bu uşaqlarla tərbiyə işləri öz səmərəsini vermir, onların yenidəntərbiyəsi ilə məşğul olmaq lazım gəlir. Yeniyetmələrin yenidəntərbiyəsi dedikdə nə başa düşülməlidir?

Professor A.N. Abbasov yazır*: "Yenidəntərbiyə* dedikdə, tərbiyəçinin uşaqda təşəkkül tapmış yanlış mühakimə, mülahizə, baxış, əqidə və qiymətləndirmənin, habelə şəxsiyyətin formalaşması prosesinə əngəl törədən davranış təcrübəsinin dəyişdirilməsinə yönəldilmiş məqsədəuyğun, mütəşəkkil, planlı və sistemli fəaliyyət nəzərdə tutulur. Tərbiyəyə nisbətən yenidəntərbiyə daha çətin və uzunsürən prosesdir. Bir yandan şagirddə özünü göstərən mənfi hallar aradan qaldırılır, digər tərəfdən müsbət keyfiyyətləri inkişaf etdirilir. Bu isə asan başa gəlmir" (1).

Uşağın, yeniyetmənin "çətinliyinin" səbəbi nədir? Bu suala cavab tapmağa çalışaq.

İlk növbədə ailənin tərbiyəvi mühitini yada salmaq lazımdır. Bu mühit əlverişlidirmi? Uşağın tərbiyəsi düzgün təşkil olunubmu? Ailədə ər-arvad arasında ixtilaflar baş verirmi? Valideyn-uşaq, ata-ana, uşaq-uşaq münasibətləri necə qurulub?

Uşağın təlim-tərbiyəsi ilə hər iki valideyn məşğul olur, yoxsa tək ana? Uşağa lap kiçik

yaşlarından tələblər verilib, yoxsa o yalnız qayğı ilə əhatə olunub?

İkincisi, məktəbin pedaqoji kollektivi, fənn müəllimləri, sinif rəhbərləri şagirdə pedaqoji prosesin yalnız obyekti kimi yanaşaraq ona tələblər verməklə məşğuldur, yoxsa eyni zamanda onu pedaqoji prosesin həm də subyekti, bərabərhüquqlu üzvləri kimi qəbul edirlər?

Müəllim-şagird münasibətləri necə qurulub, pedaqoji əməkdaşlığın səviyyəsi necədir?

Bu məsələlər aydınlaşdıqda uşağın "çətin" olmasının səbəbi də öz-özlüyündə məlum olur. Deməli, əlverişsiz həyat şəraitidir, düzgün olmayan tərbiyədir uşağı "çətin"ləşdirən. Valideynlər öz uşaqlarına pis nümunə göstəriblər. Uşaqlar lüzumsuz yerə danlanır, döyülür, söyülür, təhqir edilir. Bir sıra hallarda uşaq məktəbdə də bu kimi hallarla rastlaşır. Müəllim şagirdlər arasında fərq qoyur, ona tələblər irəli sürərkən şəxsiyyətinə məhəl qoymur. Tərbiyədə hörmət və tələbkarlıq prinsipinə əməl olunmur. Axı uşağın şəxsiyyətinə hörmət edərək ona tələblər vermək lazımdır. Özünə qarşı ədalətsizliyi, təhqiri görən uşaqda kin-kidurət, kobudluq, sözeşitməzlik yaranır və getdikcə bu, sabit xarakter almağa başlayır.

Bir sıra hallarda uşaqların hədsiz əzizlənməsi, həddindən artıq qayğı ilə əhatə olunması da onun xudpəsənd, lovğa böyüməsinə, başqa uşaqlara yuxarıdan aşağı baxmasına səbəb olur. İstəklərinin sözsüz yerinə yetirildiyini görən uşaq getdikcə tələblərini artırır. Bəzən valideyn həmin tələbləri yerinə yetirə bilmir. Belə həyata alışmış yeniyetmədə öz valideyninə qarşı acıq yaranır. Hər vəchlə tələbinə əməl edilməsini gözləyir. İstədiyinə nail olmadıqda tələbatlarını kənar mühitdə ödəməyə, kortəbii qruplarda dolaşmağa başlayır.

"Çətin" tərbiyə olunan uşaqlar, yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə bağlı istər respublikamızda, istərsə də xarici ölkələrdə bir sıra tədqiqatlar aparılmışdır. Həmin tədqiqatlardan belə uşaq və yeniyetmələrlə tərbiyə və yenidəntərbiyə işlərinin səmərəli qurulması məqsədilə faydalanmaq mümkündür.

A.N. Abbasov - 1983-cü ildə (1), A. Kərimov (2) – 1986-ci ildə "Şagirdlərin hüquq tərbiyəsi" adlı kitablar çap etdirmişlər.

A.N. Abbasov öz kitabında uşaq və yeniyetmələrdə hüquq mədəniyyətinin formalaşmasında, qanuna, birgəyaşayış qaydalarına, hüquq normalarına, hüquq mühafizə orqanları əməkdaşlarına hörmətli münasibətin tərbiyə olunmasında mühüm rol oynayan "Milisin gənc dostları", "Hərəkətin gənc müfəttişləri" dəstələrinin, "Gənc hüquqşünas məktəbi"nin, "16 yaşlılar" klubunun fəaliyyətini diqqət mərkəzinə gətirmişdir.

Kitabda oxuyuruq: "Yenidəntərbiyəyə ehtiyacı olan uşaqlarla necə rəftar etməli?" sualına cavab verməzdən əvvəl onların nə üçün məhz belə – xüsusi narahatlıq doğurduqlarının səbəbini aydınlaşdırmaq lazımdır. Bunun əsas səbəblərindən biri əlverişsiz həyat şəraiti və düzgün olmayan ailə tərbiyəsidir. İkincisi, məktəbdə təlim-tərbiyə prosesinin lazımi səviyyədə qurulmaması; üçüncüsü, gənc nəslin tərbiyəsi işində məktəb, ailə və ictimaiyyətin səylərinin tələb olunan şəkildə əlaqələndirilməməsi; dördüncüsü, kortəbii qrup ünsiyyətinin mənfi təsiridir" (1, s. 53).

S.F. Əmiraslanovanın tədqiqatı (2; 3) bilavasitə "çətin" uşaqlarla bağlıdır. Müəllif kitabda "çətin" uşaqlar və onlarla aparılan işin psixoloji xüsusiyyətlərindən bəhs edir.

Müəllif "çətin" uşaqların meydana gəlməsinin səbəbkarı kimi yanlış ailə tərbiyəsini, valideynlərin tərbiyə işinə məsuliyyətsiz yanaşmalarını, bəzi məktəblərin təlim-tərbiyə işinin yararsız olmasını göstərir.

S.A. Mehdiyev namizədlik dissertasiyasında yeniyetmələrin pedaqoji nəzarətsizliyinin və hüquq pozğunluqlarının profilaktikasında məktəb və yetkinlik yaşına çatmamışların işləri üzrə inspeksiyaların qarşılıqlı fəaliyyəti üzərində dayanmışdır (4).

Xarici ölkələrdə öz dissertasiyalarını Z.M. Burnatseva müasir çətin yeniyetmələrin mənə-

vi tərbiyəsi (5); K.A. Jukenova gələcək müəllimin uşaq kollektivini formalaşdırmaqla çətin uşaqlarla işə hazırlanması (6); M.A. Kovalçuk yuxarı sinif şagirdlərinin deviant davranışının profilaktikası (7) problemlərinə həsr etmişlər.

Qayda-qanunu pozan, cəmiyyətə zidd əməllərə uyan yeniyetmələri "çətin" adlandırırlar. Bu ifadəni düzgün saymırıq. Heç bir şəxs anadan nümunəvi davranışlı və yaxud "düzəlməz", "yolagəlməz" uşaq kimi doğulmur. Bu davranış tərzinə sonradan yiyələnir. Əslində həyatda "çətin" uşaq yoxdur. Məqsədyönlü, sistemli, fasiləsiz yenidəntərbiyə nəticəsində "çətin" adlandırılan yeniyetməni də "düz yola" gətirmək, tərbiyələndirmək mümkündür. Davranışı qüsurlu yeniyetmələrin "çətin" yeniyetmə deyil, "yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmə kimi adlandırmaq daha məqsədəuyğun olardı. "Çətin" uşaq, "çətin" yeniyetmə varsa, deməli, "çətin" valideyn, "çətin" ata, "çətin" ana, "çətin" müəllim də vardır. Məktəb bu "çətin" uşaqdan yaxa qurtarmaq istəyir, çünki onuncun problemlər yaradır. "Çətin" olan yeniyetmə deyil, onun tərbiyə olunması çətinlik törədir. Sadəcə müəllim də bu çətinliyi öz üzərinə götürmək istəmir. Çünki müəyyən vaxt itirəcək, əsəb keçirəcək.

Yuxarıda deyilənləri ümumiləşdirməli olsaq, deyə bilərik: uşaq və yeniyetmənin davranış və rəftarında yol verdiyi qüsurlar tez aşkara çıxarılmalıdır ki, həmin nöqsanların qarşısını almaq mümkün olsun. Lakin bəzən ata-analar və müəllimlər, sinif rəhbərləri və b. şagirdlərin davranışındakı, hərəkətlərindəki narahat doğuran və xoşagəlməz halları nədənsə çox gec görürlər.

Yeniyetmənin yenidəntərbiyəsi sahəsində məktəb və ailə, valideyn və müəllim əlbir fəaiyyət göstərməlidirlər.

**Məqalənin aktuallığı.** "Çətin" uşaqların yenidən tərbiyəsi həmişə aktual problem olaraq qalır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik onunla bağlıdır ki, məqalədə "Çətin" uşaqlarla təlim-tərbiyə işlərinin təşkili diqqət mərkəzinə gətirilmişdir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərsli / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. -Bakı: -2022. -464 s.

2. Əmiraslanova, S.F. Çətin uşaqlar və onlarla aparılan işin psixoloji xüsusiyyətləri / S.F. Əmiraslanova. -Bakı, -Araz, -2000. -122 s.

3. Əmiraslanova, S.F. Məktəb psixoloqunun intizamsız şagirdlərlə apardığı işin xüsusiyyətlərim / "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi istiqamətləri" mövzusunda respublika ali məktəblərarası elmi-praktik konfransın tezisləri. -Bakı, 199., -s. 107-10.

4. Мехтиев, С.А. Взаимодействие школы и инспекции по делам несовершеннолетних в предупреждении и преодолении педагогической запущенности и правонарушений подростков: Дис. …канд. пед. наук. -Баку, 1990. -151 с.

5. Бурнацева, З.М. Нравственное воспитание современных трудных подростков: Дис. …канд.пед.наук. Владикафказ, 2005, 189 с.

6. Жукенова, К.А. Подготовка будущего учителя к работе с трудными детьми через формирование детского коллектива: Дис. …канд.наук. Алма-Ата, 1990.

7. Ковальчук, М.А. Профилактика девиантного поведения старшеклассников: Дис. …д-ра.пед.наук. Ярославль 2002.

**В.В. Амирасланова**

## Организация воспитательной работы с «Трудными» детями

## Резюме

В чем причина «трудности» ребенка, подростка? Попробуй найти ответ на этот вопрос. В первую очередь необходимо помнить о воспитательной среде семьи. Благоприятна ли эта среда? Правильно ли организовано воспитание ребенка? Бывают ли в семье конфликты между мужем и женой? Как устанавливаются детско-родительские, детско-детские отношения?

**V.V. Amiraslanova**

## Organızatıon of educatıonal work wıth "Difficult" chıldren

## Summary

What is the reason for the “difficulties” of a child, a teenager? Try to find the answer to this question. First of all, it is necessary to remember the educational environment of the family. Is this environment good? Is the upbringing of the child properly organized? Are there conflicts between husband and wife in the family? How are child-parent, child-child relationships established?

**Redaksiyaya daxil olub:** 18.03.2022